# Şuşa sevgisinə bürünmüş poeziya məclisi





**Şuşa Dövlət Musiqili Dram Teatrının qarşısında qələbəlik idi. Paytaxtda məskunlaşan şuşalılar dilçi alim, türkoloq, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, AYB-nin üzvü, Türk Dünyası Alim Qadınlar Şurasının sədri, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, nəğməkar şairə Mahirə Nağıqızı Hüseynova ilə görüşə toplaşmışdılar.**

Şuşa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən toplantıda filoloq şairənin yaradıcılığının pərəstişkarları ilə yanaşı, ictimai-siyasi xadimlər, tanınmış elm və mədəniyyət adamları da iştirak edirdilər. Görüşü Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva açaraq müasir poeziyamızda incə ruhlu şairə kimi tanınan Mahirə Nağıqızının yaradıcılıq yolundan, dilçi alim kimi elmi araşdırmalarından və ictimai-siyasi xadim kimi Vətən qarşısında xidmətlərindən söz açdı. Natiq qeyd etdi ki, Mahirə Hüseynova dilçilik elmində fonetika, morfologiya, sintaksis və leksikologiya üzrə tədqiqatlar aparmış qiymətli monoqrafiyalar müəllifi kimi tanınmaqla yanaşı, sözə Vətən, torpaq, xalq sevgisinin tərənnümünün incisi kimi nizam verən zərif duyğulu şairə kimi də oxucu sevgisi qazanmışdır.

Yaradıcılıq məclisində Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı, fəlsəfə elmləri doktoru, AYB-nin üzvü, Beynəlxalq Professorlar Akademiyasının üzvü, professor Rafiq Əliyev, Bakı Slavyan Univesitetinin rektoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Nağıyev və görüşün sair qonaqları çıxış edərək Mahirə Hüseynovanın elmi və ədəbi yaradıcılığının mövzu, ideya və sənətkarlıq xüsusiyyətlərindən, Azərbaycan dilinin tədqiqi və zənginləşməsi yolunda yorulmaz fəaliyyətindən bəhs etdilər.

Görüşün ədəbi-bədii hissəsində Şuşa Dövlət Musiqili Dram Teatrının aktyorları şairənin “Qarabağım”, “Vətən”, “Şəhid anasına məktub”, “Məbəd ürəyin”, “Tələsmə hələ həkim” və digər şeirlərini səsləndirdilər, musiqiçilər şairənin şeirlərinə bəstələnmiş mahnıları ifa etdilər.

Məclisin davamında Mahirə Hüseynova xoş sözlərə görə minnətdarlığını bildirdi, yeni yaradıcılıq planlarından söz açdı. Şairə Şuşa ilə bağlı duyğu-düşüncələrini bölüşərkən vurğuladı ki, son illərdə onu ən çox sevindirən və qürurlandıran müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun xalqımızın mədəniyyət və mənəviyyat paytaxtı olan Şuşanın erməni faşizmindən azad edilməsi, torpaqlarımız uğrunda haqq savaşında 44 günlük Zəfərimiz və dövlət başçısının Xankəndidə Azərbaycan bayrağının qaldırması olub: “ Biz artıq bir millət və xalq olaraq qalib xalq kimi başımızı dik tutub gəzə bilirik. Bundan sonra biz ədəbiyyat və incəsənət adamlarının üzərinə düşən ən müqəddəs vəzifə bu Zəfəri gənc nəsillərə çatdırmaq üçün ona layiq əsərlər yazıb yaratmaqdır”.

Ədəbi-bədii görüşün sonunda Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov Mahirə xanımın ana dilimizin tədqiqi sahəsində xidmətlərinin və yurd sevgisi ilə aşılanmış şeirlərinin gənc nəslin vətənpərvərlik tərbiyəsinə önəmli töhfə olduğunu söylədi, şairəyə Şuşa sevgisinə, şuşalılara dostluq münasibətinə görə təşəkkür etdi. Başçı rəhbəri olduğu şəhərin rəmzi olan Şuşa qalasının rəsmini şairəyə hədiyyə etdi.

***İlqar RÜSTƏMOV***
***XQ***

Xalq qəzeti .- 2025.- 28 may (№110).- S.18.